***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR-IN-CHIEF***

*UOT 371*

***Akif Nurağa oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*https://orcid.org/0000-0002-9210-7141*
*E-mail: a.abbasov@arti.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(5).5-9*

# “HEÇ KİM SƏNİ GÖMƏYƏNDƏ” TƏRBİYƏ TEXNOLOGİYASI: MAHİYYƏTİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ, MƏZMUNU

***Akif Nuragha Abbasov***
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of pedagogical sciences, professor, Honored teacher*

# UPBRINGING TECHNOLOGY “WHEN NO ONE SEES YOU”: ESSENCE, PURPOSE AND TASKS, CONTENT

***Акиф Нурага оглы Аббасов***
*ученый секретарь Института Образования Азербайджанской Республики,*
*доктор педагогических наук, профессор, заслуженный учитель*

# ВОСПИТАТЕЛЬНАЯ ТЕХНОЛОГИЯ «КОГДА НИКТО ТЕБЯ НЕ ВИДЕТ»: СУЩНОСТЬ, ЦЕЛЬ И ЗАДАЧИ И СОДЕРЖАНИЕ

**Xülasə.** Tərbiyə texnologiyalarından istifadə etməklə şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması və daha da inkişaf etdirilməsi mümkündür. Bu sahədə tərəfimizdən müəyyənləşdirilmiş “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının özünəməxsus rolu vardır. Təhsilalanlarda vətənpərvərlik, düzlük və doğruçuluq, böyüyə hörmət, gözütoxluq, xeyirxahlıq və yaxşılıq, humanizm, vicdanlılıq, alicənablıq, mərdlik, insanpərvərlik və s. mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının tətbiqi səmərəli nəticələr verir.

Məqalədə “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının mahiyyəti, məqsəd və vəzifələri, məzmunu diqqətə çatdırılır.
***Açar sözlər:*** *texnologiya, pedaqoji texnologiya, təhsil texnologiyası, tərbiyə texnologiyası, “Heç kim səni görməyəndə” tərbiyə texnologiyası, tərbiyə texnologiyasının tətbiqi*

**Abstract**. The development and further enhancement of moral qualities in students is possible through upbringing technologies. Our upbringing technology, "When No One Sees You," plays a special role in this process. The use of the upbringing technology "When No One Sees You" yields effective results in developing students' moral qualities such as patriotism, honesty and truthfulness, respect for elders, kindness and nobility, humanism, honesty, generosity, courage, humanity, and others.

This article examines the essence, goals, objectives, and content of the educational technology "When No One Sees You."
***Keywords***: *technology, pedagogical technology, educational technology, upbringing technology, upbringing technology "When No One Sees You" upbringing technology, educational technology, application of educational technology*

**Аннотация**. Формирование и дальнейшее развитие нравственных качеств учащихся и студентов возможно с помощью воспитательных технологий. Разработанная нами воспитательная технология «Когда тебя никто не видит» играет в этом особую роль. Применение воспитательной

технологии «Когда тебя никто не видит» даёт эффективные результаты в развитии у учащихся таких нравственных качеств, как патриотизм, честность и правдивость, уважение к старшим, щедрость, доброта и благородство, гуманизм, честность, щедрость, мужество, человечность и др.

В статье рассматриваются сущность, цели и задачи, а также содержание воспитательной технологии «Когда тебя никто не видит».

***Ключевые слова***: *технология, педагогическая технология, образовательная технология, воспитательная технология, воспитательная технология «Когда тебя никто не видит», образовательная технология, применение воспитательной технологии*

Müxtəlif pedaqoji texnologiyalar vardır. Pedaqoji ədəbiyyatda həmin texnologiyalar iki formada təqdim olunur: 1) müəllifli, yəni pedaqoji texnologiya hansısa pedaqoqa məxsusdur; 2) müəllifsiz.

***Texnologiya*** dedikdə, nə başa düşülməlidir." Azərbaycan dilinin izahlı lüğəti"ndə "texnologiya" anlayışına aşağıdakı şəkildə aydınlıq gətirilir: "Texnologiya – (yun. *techno* - ustalıq, bacarıq, və *loqos* – təlim, elm) istehsal proseslərini həyata keçirmək üsul və vasitələri haqqında biliklərin məcmusu, habelə bun üsulların özü" [1]

Texnologiyalar bilavasitə pedaqoji, yaxud təhsil texnologiyaları, həmçinin təlim texnologiyaları kimi diqqət mərkəzinə gətirilir. Lakin aşağıda adları çəkilən texnologiyalar pedaqoji texnologiyalar kimi təqdim edilsə də, həm də tərbiyə texnologiyaları kimi qəbul olunur.

***Pedaqoji (****təhsil)* ***texnologiya*** – pedaqoji və psixoloji göstərişlər əsasında təlim və tərbiyə prosesində sistemli şəkildə istifadə edilən formaların, metodların, yolların, təlim texnikasının və tədris vasitələrinin özünəməxsus məcmusu olub daim əvvəlcədən proqnozlaşdırılan təhsil və tərbiyə nəticələrinə imkan verir.

***Təlim texnologiyaları*** dedikdə, qarşıda duran məqsədə əsasən təlimin təşkili və idarə olunmasına yönələn əməliyyat sistemi başa düşülür. Təlim texnologiyaları təlimin məqsədlərinin, metod və vasitələrinin, həmçinin vasitələrinin praktik şəkildə həyata keçirilməsini nəzərdə tutur.

Ötən əsrin 70-ci illərində haqqında danışılan anlayış daha geniş şəkildə istifadə edilməyə başlanmışdır. Təlim texnologiyası tədris prosesinin təkmilləşdirilməsi, onun təşkilinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar didaktikanın bütün fundamental problemlərini özündə birləşdirdi.

Pedaqoji (təhsil) texnologiyalara dair bir sıra tədqiqatlar aparılmış, kitab və kitabçalar, məqalələr, dissertasiyalar yazılmışdır.

Bu baxımdan Ayşe Emre Altınay Ali kızının ARTİ-nin Elmi əsərlərində çap etdirdiyi "Pedaqoji kadrların hazırlığında pedaqoji texnologiyalardan istifadə dövrün tələbidir" [2]; Z. Əsgərovanın "Yeni pedaqoji texnologiyalar fəal təlimə əsaslanır" [3]; C.A. Orucovanın "Müasir təhsildə pedaqoji texnologiyalar" [4]; T.V. Petrovanın "ART - təhsil prosesində texnologiya" [5] məqalələri diqqəti cəlb edir.

Azərbaycanda pedaqoji texnologiyalara və təlim texnologiyalarına aid bir sıra metodik vəsait və dərs vəsaiti qələmə alınmışdır. M.F. Məmmədzadənin orta məktəb dərslərində seçmə fənn və ingilis dilinin tədrisi üçün "Yeni təlim texnologiyaları" adlı metodik vəsaitini [6]; F. Əliyeva və Ü. Məmmədova "Müasir təlim texnologiyaları" [7]; S.A. Əliyevanın "Məktəbəqədər təhsildə müasir təlim texnologiyalar" [8]; A. Nəzərovun "Müasir təlim texnologiyaları" (Mühazirə xülasələri) [9]; A.Z. Məmmədovanın "Kimyanın tədrisində müasir təlim texnologiyaları" [10] dərs vəsaitlərini qeyd etmək mümkündür.

F. Əliyeva və Ü. Məmmədovanın "Müasir təlim texnologiyaları" adlı dərs vəsaitində müasir təlim texnologiyalarının, innovasiyaların, interaktiv təlimin, kurikulum sənədindən istifadənin yolları, təlim prosesində İKT-dən faydalanma, qiymətləndirmə məsələləri öz ifadəsini tapmış, fəal dərsin mərhələləri nəzəri və praktik cəhətdən əsaslandırılmışdır.

S.A. Əliyevanın "Məktəbəqədər təhsildə müasir təlim texnologiyalar" dərs vəsaitində dünyada məktəbəqədər təhsildə tətbiq olunan təlim texnologiyaları, onların mahiyyəti və rolu diqqət mərkəzinə gətirilir. Təlim texnologiyalarından faydalanma zamanı tərbiyəçilərin vəzifələri, məktəbəqədər təhsildə təlim texnologiyalarına verilən başlıca tələblər və şərtlər; təlim texnologiyalarının quruluşu və növləri, təlim texnologiyalarından istifadə zamanı tərbiyəçinin ustalığı ilə tanış olmaq mümkündür.

A. Nəzərovun “Müasir təlim texnologiyaları” (Mühazirə xülasələri) dərs vəsaiti də [9] nəzərdən keçirdiyimi problem baxımından geniş material verir.

A.Z. Məmmədova “Kimyanın tədrisində müasir təlim texnologiyaları” adlı dərs vəsaiti də [10] maraq doğurur.

Qeyd etdiyimiz kimi, ölkəmizdə və keçmiş SSRİ-yə daxil olan hazırkı müstəqil respublikalarda pedaqoji texnologiyalar və həmçinin ayrıca təlim texnologiyaları ilə bağlı bəzi dissertasiyalar müdafiə olunmuşdur. Diqqət yetirək:

A.Q. Kazakova pedaqogika elmlər doktoru elmi dərəcəsi almaq üçün **“**Müəllimlərin əlavə peşə təhsilində müasir pedaqoji texnologiyalar” [11]; İ.Y. Melkozerova “Şəxsiyyətyönlü təhsil baxımından müasir təhsil texnologiyalarının pedaqoji səmərəliliyi” [12]; N. Ostroumova **“**Tələbələrin təhsil fəaliyyətinin inkişafına hazırlığının formalaşdırılmasının pedaqoji texnologiyası” [13] mövzusunda dissertasiyalar yazmış və müdafiə etmişlər.

Lakin nədənsə tərbiyə texnologiyalarına az diqqət yetirilir. Tərbiyə texnologiyaları ilə bağlı tədqiqatları diqqət mərkəzinə gətirək:

S.E. Slobodenyuk [14], Y.A. Barxatova [14], L.A. Vorobyova [16], Y.V. Zdorovenko [17], S.A. Qatayev [18] və b. öz məqalələrini tərbiyə texnologiyalarına həsr etmişlər.

***Tərbiyə texnologiyası dedikdə nə başa düşmək lazımdır?***

***Tərbiyə texnologiyası*** şəxsiyyətin inkişafına təsir göstərmək üçün tərbiyəvi məqsədlərə nail olmağa yönəlmiş metodların, prinsiplərin, tərzlərin və vasitələrin məcmusudur. Bu texnologiyalar subyektləri arasında zəruri əlaqələrin yaradılmasını asanlaşdıran, məqsədlə bilavasitə təmasda – tələbələri ümumbəşəri dəyərlərlə tanış etməyə imkan verən elmi cəhətdən əsaslandırılmış texnika və metodlar sistemidir.

Tərbiyə texnologiyalarının sırasına daha bir tərbiyə texnologiyasının daxil edilməsini məqsədəuyğun hesab edirik: “Heç kim səni görməyəndə” tərbiyə texnologiyası.

Həmin tərbiyə texnologiyasını biz irəli sürmüşük. Bir sıra ümumtəhsil məktəblərində (Şirvan şəhəri 1 və 2 nömrəli tam məktəblərində və s.), ali təhsil müəssisələrində (ADPU-nun Cəlilabad filialında, Bakı Qızlar Universitetində) şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı digər tərbiyə texnologiyaları ilə yanaşı bu tərbiyə texnologiyası da tətbiq edilir.

Evdə, ictimai yerlərdə, işdə, ümumtəhsil məktəblərində, kolleclərdə, institut və universitetlərdə təhsilalanlar, yaxud digər şəxslər ya tələbat hiss etdikdə, yaxud da, necə deyərlər, “gözə girmək”, “xal toplamaq”, özünü yaxşı göstərmək üçün ona aid olmayan işləri, hərəkətləri yerinə yetirir. Məsələn, yerə atılmış kağızı əyilib götürür, aparıb zibil yeşiyinə atır. Yaxud itirilmiş pulu mənimsəmir. Baxmayaraq ki, onun pul tapdığını heç kim görməyib, o pula onun çox böyük ehtiyacı var, vicdanının səsinə qulaq asaraq, pul sahibini axtarıb-tapır, pulu qaytarır. Bundan sonra ürəyi sakitləşir, dinclik tapır. Bu hərəkəti ona görə etmir ki, ona ”sağ ol” desinlər, onu mükafatlandırsınlar. Sadəcə o, düzgün tərbiyə almışdır, ona düzlük və doğruçuluq kimi çox yaxşı keyfiyyətlər aşılamışlar.

Təhsil müəssisələrində aşağıdakı tərbiyə texnologiyalarından faydalanmağı məqsədəuyğun hesab edirik: 1. S.T. Şatski, L.V. Zankov, E.N. İlin, Q.K. Selevko və b.-nın “Əməkdaşlıq tərbiyə texnologiyası”.2. V.A. Suxomlinskinin ”Kollektiv humanist tərbiyə texnologiyası”. 3. A.N. Abbasovun “Heç kim səni görməyəndə” tərbiyə texnologiyası. 4. Ş.A. Amonaşvilinin “Şəxsiyyıtyönlü humanist tərbiyə texnologiyası”. 5. O.S. Qazmanın “Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası”. 6. N.E. Şurkovanın “Qrup tərbiyə işinin təşkili və aparılması texnologiyaları”. 7. L.İ. Novikova, V. A. Karakovski və N. L. Selivanovanın “Sistemli yanaşmaya əsaslanan tərbiyə texnologiyası” 8. I.P. İvanovanın “Kollektiv yaradıcı tərbiyə texnologiyası”. 9. “Uğur vəziyyəti" təşkil etmək texnologiyası. 10. Pedaqoji ixtilafların aradan qaldırılması texnologiyası. 11. G.K. Selevkonun “Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası”. 12. Mənəvi, əqli, fiziki və psixoloji sağlamlığa yönələn tərbiyə texnologiyaları.

Tərbiyə texnologiyalarından istifadə etməklə şagirdlərdə və tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması və daha da inkişaf etdirilməsi mümkündür. Bu sahədə tərəfimizdən müəyyənləşdirilmiş “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının özünəməxsus rolu vardır.

Təhsilalanlarda vətənpərvərlik, düzlük və doğruçuluq, böyüyə hörmət, gözütoxluq, xeyirxahlıq və yaxşılıq, humanizm, vicdanlılıq,

alicənablıq, mərdlik, insanpərvərlik və s. mənəvi keyfiyyətlərin inkişaf etdirilməsində “Heç kim səni görməyəndə tərbiyə texnologiyası”nın tətbiqi səmərəli nəticələr verir. Tərbiyə texnologiyaları tətbiq etməklə aşağıdakı mətndən faydalanaraq tələbələrin mənəvi keyfiyyətlərinin inkişafına nail olmaq.

Professor A.N. Abbasovun “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının tətbiqi ilə:

*Cavan oğlan (tutaq ki onun adı Nəsirdir) çəkməçidir. Küçədə əyləşib gəlib-gedənin, daha doğrusu müraciət edənin ayaqqabılarının tozunu alır, ayaqqabılara rəng çəkir. Bu minvalla dolanır, qoca nənəsinə baxır, onu korluq çəkməyə qoymur. Nəsir ata-anasını itirib. Yayda işləri qaydasında gedir, qışda canı soyuq çəkir, nə qədər geyinib-keçinsə də. Küçə – çöldür, bayırdır, külək bir yandan, yağış və qar başqa bir yandan.

Səliqəli geyinmiş bir kişi (tutaq ki onun adı Səməddir) yaxınlaşıb oğlanın qarşısındakı kətildə əyləşir. Nəsir cəld fırçanı götürüb onun ayaqqabılarının tozunu alır, qara boya çəkir, yun parçanı götürüb ayaqqabıları parıldadır.

Səməd əlini cibinə salıb Nəsirin pulunu verir və gedir.

Başı müştərilərə qarışmış Nəsir bir də görür ki, yerə bir dəstə pul düşüb. Fikrə gedir. Başa düşür ki, pul Səməd olacaq. O, pulları götürüb onun dalınca qaçır. Lakin Səmədə çatmır. Xoşbəxtlikdən pulların arasında vizit kartı vardı. Orada Səmədin yaşadığı ünvan və mobil telefon nömrəsi göstərilmişdi.

Nəsir zəng eləməyib həmin ünvana gedir. Qapını xidmətçi açır. Bildirir ki, ağası evdə yoxdur. Nəsir vəziyyəti xidmətçiyə anladıb xahiş edir ki, pulu Səmədə versin.

Öz hərəkətindən razı qalan Nəsir geri dönür. Bir neçə gün sonra təsadüfən Səmədlə rastlaşır. Əhvalatı ona danışır, öyrənir ki, xidmətçi pulu Səmədə çatdırmayıb. Pulun dalından keçən xidmətçinin hərəkəti Səmədə, söz yoxm ki, xoş gəlmir. Pərt olur.

Səməd özünə ünvanlanmış bir məktub yazır. Həmin məktubu və bir neçə yüz manat da Nəsirə uzadaraq:

-Mən bu işin axırına çıxmaq istəyirəm, - deyir. -Sabah gətirib bu məktubla pulları həmin xidmətçiyə ver və xahiş et ki, mənə çatdırsın

-Yaxşı.

Nəsir deyiləni yerinə yetirir. Sən demə, Səməd ikinci mərtəbədən göz qoyurmuş. Nəsir xudahafizləşib gedir. Əslində o da çıxıb ayaq saxlayır. Küçənin tinində dayanıb Səməd kişinin işarəsini gözləyir.

Bir saat keçir. Səməd xidmətçidən bir xəbər çıxmadığını görüb özü onu otağına çağırır:

-Bu gün məni soruşan olub?

Xidmətçi oğlan heç nə olmamış kimi inamla cavab verir:

-Xeyir.

-Mənə məktub gətiriblər?

-Gətirməyiblər.

Səməd qaşlarını çatır:

-Sənə pul verib deməyiblər ki, mənə çatdırasan?

Xidmətçi tutulur, lakin özünü ələ alaraq cavab verir:

-Pul? Nə pul? Yox.

Səmədin ona acığı tutur, sərt:

-Qapını aç, - deyir, -küçədə bir cavan oğlan dayanıb. Onu içəri çağır.

Xidmətçi qapını açır, Nəsiri görəndə tutulur. Bir anlığa nitqi kəsilir. Bilmir özünü necə aparsın, vəziyyətdən necə çıxsın. Başa düşür ki, Səmədin məsələdən xəbəri var.

Səməd üzünü xidmətçiyə tutaraq:

-Sən etibarsız adamsan, - deyir. – Səninlə bizimki tutmaz. Bu evdə sənə yer yoxdur. Bu gündən işini itirdin. Gedə bilərsən.

Xidmətçi çox yalvarıb, faydası olmur. O, gedəndən sonra Səməd Nəsirə deyir:

-Sən halal adamsan. Bizim evdə xidmətçi işləmək istərsən? Sənin kimi sədaqətli insana bu evin ehtiyacı var.

Nəsir fikrə gedir. Səməd:

-Sənin kimi gözəl insanın çox əziyyətlə pul qazanmağın mənin ürəyimi ağrıdır. Yayın istisində, qışın şaxtasında küçədə. Əl-ayağın dona-dona. Hə, nə deyirsən.

Nəsir razılığını bildirir. Həmin evdə sədaqətlə ev sahiblərinə xidmət göstərməyə başlayır.

Müəllim: Professor A.N. Abbasovun “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasının tətbiqi ilə nəzərdən keçirilən nümunə sizdə hansı hissləri hərəkətə gətirdi?

Tələbə Sevinc: Bizim hamımız özümüzü şəxsiyyət hesab edirik. Çünki, bəli, şəxsiyyətik. Yalnız böyük adamlar, adlı-sanlı insanlar şəxsiyyət deyil. Biz daim özümüzü təkmilləşdirməli, baş verən hadisələrdən nəticə çıxarmalı, səhvlə-

rimizi görüb ibrət götürməli, onları düzəltməliyik. Mənəvi keyfiyyətlərimizi təkmilləşdirməliyik. Professor A.N. Abbasovun “Heç kim səni görməyəndə” tərbiyə texnologiyasından müəllimin faydalanaraq, təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici əhəmiyyət daşıyan “Sədaqətli çəkməçi” hekayəsini diqqətimizə çatdırması yüksək mənəvi keyfiyyətlər olan etibarlılığa, alicənablığın, zəhmətsevərliyin, gözütoxluğun, təmənnasızlığın sədaqət, doğruçulugun və s. təqdir olunması, yalançılıq, tamahkarlıq və s. kimi mənfi keyfiyyətlərin pislənməsi üçün imkanlar açır.

**Problemin aktuallığı**. Tərbiyə texnologiyaları az tədqiq olunan problemdir. Lakin son dərəcə əhəmiyyətli məsələdir. Bu mövzuya müraciət etmək aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Bu məqalədə onun müəllifinə məxsus “Heç kim səni görməyəndə” tərbiyə texnologiyası haqqında söz açılır. Bu texnologiyadan faydalanmaqla böyüməkdə olan nəsildə mənəvi keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi mümkün olur.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. “Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, IV cild. Bakı: Şərq-Qərb, 2006. 712 s. s. 276
2. Ayşe Emre Altınay Ali qızı. Pedaqoji kadrların hazırlığında pedaqoji texnologiyalardan istifadə dövrün tələbidir // -Bakı: ARTİ-nin Elmi əsərləri, 2021, 3. s. 70-73
3. Əsgərova, Z. Yeni pedaqoji texnologiyalar fəal təlimə əsaslanır // -Bakı: Azərbaycan müəllimi,. 2010.- 15 oktyabr.- s.22
4. Orucova, C.A. Müasir təhsildə pedaqoji texnologiyalar (PTT, OT, YET) // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2023, №1, s. 57-61
5. Петрова, Т.В. Арт – технологии в образовательном процессе https://nsportal.ru/detskiy-sad/raznoe/2018/10/16/art-tehnologii-v-obrazovatelnom-protsesse
6. Məmmədzadə, M.F. Yeni təlim texnologiyaları: Orta mıktəb dərslərində seçmə fənn və ingilis dilinin tədrisi üçün metodik vəsait / M.F. Məmmədzadə. -Bakı, -2009. -220 s.
7. Əliyeva, F. Müasir təlim texnologiyaları: Dərs vəsaiti / F. Əliyeva və Ü. Məmmədova. -Bakı: MBM nəşriyyatı, -2014. – 192 s.
8. Əliyeva, S.A. Məktəbəqədər təhsildə müasir təlim texnologiyalar: Dərs vəsaiti / S.A. Əliyeva. -Bakı: -2022. -133 s.
9. Nəzərov, A.M. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri): Dərs vəsaiti / A.M. Nəzərov. – Bakı: ADPU-nəşriyyatı, -2012. -103 s.
10. Məmmədova, A.Z. Kimyanın tədrisində müasir təlim texnologiyaları: Ali məktəblər üçün dərs vəsaiti / A.Z. Məmmədova. - Bakı, ADPU-nun nəşri, -2012. -242 s.
11. Казакова, А.Г. Современные педагогические технологии в дополнительном профессиональном образовании преподавателей: / дис. кандидата педагогических наук) / -2000. -372 с.
12. Мелкозерова, И.Е. Педагогическая эффективность современных образовательных технологий с позиций личностно-ориентированного образования: /автореферат дис. каидидата педагогических наук) / Ростов-на-Дону, 2003. -23 с.
13. Остроумова, Е.Н. Педагогическая технология формирования готовности студентов к развитию учебной деятельности: / дис. кандидата педагогических наук) / -Волгоград, 2002. -150 с.
14. Слободенюк, С.Е. Современные воспитательные технологии https://nsportal.ru/nachalnaya-shkola/vospitatelnaya rabota/2017/01/12/sovremennye-vospitatelnye-tehnologii
15. Бархатова, Е.А. Современные воспитательные технологии https://nsportal.ru/nachalnaya-shkola/vospitatelnaya-rabota/2012/02/12/sovremennye-vospitatelnye-tekhnologii
16. Воробьева, Л.А. Современные воспитательные технологии и методики. https://nsportal.ru/ nachalnaya-shkola/vospitatelnaya-rabota/2012/10/14/sovremennye-vospitatelnye-tekhnologii-i-metodiki
17. Здоровенко, Е.В. Современные воспитательные технологии. https://nsportal.ru/nachalnaya-shkola/materialy-mo/2014/12/11/sovremennye-vospitatelnye-tekhnologii
18. Гатаев Анзор Сайд-Альвиеви. *Развитие воспитательных технологий в современном образовании* научной // Азмут научных исследований: педагогика и психология, 2020, т.9, № 4 с. 79-81